# Avro –2020: finala layiq yarımfinal



## İtaliya finalı “lotereya”da uddu

***İtaliya millisi ilə İspaniya komandasının qarşılaşması təkcə Avro–2020-nin deyil, bütövlükdə futbolun klassikası ola bilərdi, amma kontekst bu oyunu daha yüksəyə qaldırır. Ekspertlər hələ bu oyuna qədər təhlillərində qeyd edirdilər ki, baş məşqçi Roberto Mançininin rəhbərlik etdiyi indiki İtaliya millisi İspaniyanın özündən çox İspaniyaya bənzəyir. Komanda bu Avroda hamıdan çox qapıya zərbə endirir və topa sahibolmada üçüncü yerdədir. Bu böyük göstəricilər təkcə gücdən deyil, eyni zamanda, italiyanların üslubunun göstəricisidir. Elə Belçika ilə qarşılaşma da göstərdi ki, italiyanlar hətta ən çətin rəqiblərlə belə üslublarından imtina etmirlər.***

Tam səmimi deyim ki, mən İspaniyanın azarkeşi idim və bu oyunda Luis Enrikenin komandası məğlub olsa belə, bu, mövqeyimə qətiyyən peşiman olmadım. Çünki Luçonun (Luis Enrike –red.) ecazkar planı oyunun birinci hissəsində özünü tam doğrultdu və ispanlar italiyanları demək olar ki, topsuz qoydular. Birinci hissənin ortalarında İspaniya millisinin topa sahibolma nəticəsi 70 faizə çatırdı. Bu işin xiridarı isə 18 yaşlı Pedri idi. Yaşından artıq təcrübə nümayiş etdirən bu yarımmüdafiəçi 45 dəqiqədə 31 ötürməni 100 faiz dəqiqliklə yerinə yetirdi. Əlbəttə, demək olmaz ki, italiyanlar da qollarını yana salıb rəqiblərini cərimə meydançalarında qarşıladılar. Yox, onlar da pressinqə adaptasiya olundular. Top ispanlarda olsa da, italiyanların



meydanında cərimə meydançasından uzaqda ilişib qalır və qapıya tərəf çox az-az hallarda yol tapırdı.

Luçoya və onun komandasının ünvanına deyilən tériflərə baxmayaraq, bu matçı heç də bir komandanın meydanda hökmranlıq etməsi və digərinin bəxtinin gətirməsi kimi qələmə vermək də doğru olmazdı. Hökmranlıq elə də tam özünü nümayiş etdirmədi: Birinci hissə ərzində rəqibin cərimə meydançasına cəmi bir ötürmə və Donnarummanın cəmi bir əla qurtarışı ilə yadda qaldı.

Luço taktiki gedişləri ilə İtaliyanı alışdığı oyun üslubundan məhrum edə və Verratti, Barelli, Jorjino kimi oyunçuları müdafiə olunmağa məcbur edə bildi. Ancaq onun yetirmələri bu üstünlüyü təhlükəli vəziyyətlərə və qollara çevirə bilmədilər. İkinci hissə



yeni taktiki gediş tələb edirdi. Əslində, İtaliya millisi topa sahibolmada uğursuz olsa da, çevik konturpressinqlə topu mərkəzdə saxlamağa nail oldu və rəqibin təhlükəli hücumlar yaratmasına yer qoymadı.

İspaniya millisi ikinci hissəyə çox təhlükəli hücumlarla başladı. Oyunun ən fəallarından olan Olma sol cinahdan sağ cinaha sürətli keçidləri ilə rəqibin müdafiəsini dolaşdırıb qapının önünə təhlükəli ötürmə etdi. Sonra cərimə meydançasının qarşısında topa sahib olan kapitan Serxio Buskets güclü zərbə ilə Donnarummanın sayıqlığını sınağa çəkdi. Top azacıq qapının üstündən keçdi.

İtaliyanlar da borclu qalmadılar və Federiko Keyza təqribən eyni məsafədən dəqiq zərbə endirdi, lakin Unayi Simon əla reaksiya ilə zərbəni dəf etdi. Oyunun 60 dəqiqəsi geridə qalırdı. İtaliyanlar Donnarummanın uzaq ötürməsi ilə əks hücuma keçdilər. İnsinyenin dəqiq ötürməsinə



hücum çəkən İmmobileni cərimə meydançasında sıx qarşıladılar. Topu Keyza ələ keçirdi və dəqiq zərbə ilə küncü hədəfə aldı – qol, 1 –0 İtaliya irəli çıxdı. Əslində İtaliyanın matçda öz oyununu oynaya bilməsi və imkanları baxımından bu məntiqsiz bir qol idi. Lakin oyunun ikinci hissədə necə dəyişdiyini nəzərə alsaq, tam məntiqə uyğun idi. Çünki bu vaxt artıq İspaniyanın topa sahibolması tədricən zəifləmişdi və oyun artıq qarşılıqlı hücumlarla açıq keçirdi.

Bundan dəqiqələr sonra Luis Enrike döyüşə Morata və Morenonun qismində yeni qüvvələr çıxardı. İspaniya yenidən İtaliyanlardan üstün oyun nümayiş etdirməyə, rəqibi tam topsuz qoymağa, hətta onu qapılarında daha yaxın sıxışdırmağa nail oldu. Bir neçə hücumda Luçonun yetirmələrinin təhlükəli vəziyyətlərə son bir ötürmələri çatmırdı. Hakimin final fitinin səslənməsinə 10 dəqiqə qalmış Morata ilə Olma son dərəcə gözəl kombinasiya ilə geri çəkilmiş “Skaudra Adzurra”nın müdafiə səddini yardılar. Bir “divar” ötürməsi ilə Morata və Olmo İtaliya yığmasının bütün müdafiəsini çıxılmaz vəziyyətdə qoydular. Alvaro yaxşı bələd olduğu Donnarummanı bir hərəkəti ilə aldadaraq sola sıçramağa məcbur etdi və soyuqqanlı şəkildə topu sağ küncə vurdu: 1 – 1.

Bu qoldan sonra aydın oldu ki, komandalar əlavə vaxta köklənniblər. İspaniya turnir ərzində üçüncü, İtaliya millisi isə ikinci əlavə vaxtda oynamaq məcburiyyətində idilər. İspanlar həqiqətən oyunun əsas vaxtından qalib ayrılıb finala vəsiqəni özlərinə təmin edə bilərdilər. Ancaq sahib olduqları üstünlükləri heç cür təhlükəli vəziyyətə və qola çevirə bilmirdilər. İtaliyanlar isə əllərinə düşən hər fürsətdə təhlükəli əks-hücumlar yaradırdılar. Burada baş hakim Feliks Brıxın qərarları da öz rolunu oynadı. Doğrudur, onun elə kobud bir səhvi olmadı, lakin taktiki qayda pozuntularını qiymətləndirməsinə gəldikdə isə onlara məəttəl qalmaya bilmirdin. İspaniya millisinin oyunçuları rəqibin hücumlarını elə meydanın onlara aid hissəsində taktiki cərimələrlə neytrallaşdırırdılar və buna Brıx heç bir ciddi reaksiya göstərmirdi. Məsələn, Olmo rəqibə qarşı 8 dəfə kobud oynadı və bir sarı vərəqə belə almadı. Müəyyən qədər bu da İtaliyanın sürətli əks-hücumlarının intensivliyinə mane olurdu.

Overtaymın birinci hissəsində İspaniya millisi rəqibindən dah yaxşı oyun nümayiş etdirdi. Hətta təhlükəli hücumların birində Bonuççi yalnız son məqamda topu qapı xəttinin üstündən çıxarıb komandasını məğlubiyyətdən xilas edə bildi. Bu məqamda artıq İtaliya 5 oyunçu ilə müdafiə olunurdu. İtaliya sıx müdafiəylə 4 - 5 - 1 sisteminə keçib mərkəzdə ciddi sədd qurmuşdu.

İspaniya hücumlarını aramsız davam etdirirdi.

Əlavə vaxtda yorulmalarına baxmayaraq ispanlar standart vəziyyətlərdə də rəqiblərini üstələyirdilər. Əsas oyunun 90 dəqiqəsində standart vəziyyətlərdən vurulan zərbələrin hesabı 0 – 1 idisə, 30 dəqiqə əlavə vaxtda 0 –3 oldu. Hətta Olmonun birbaşa qapıya vurduğu zərbə italiyanları təşvişə saldı.

Komandalar matçın taleyini 11 metrlik zərbələrlə həll etməli oldular. Hər ikisi uğursuz başladı. Unayi Simon Lokatellinin zərbəsini dəf etdi, Olmo isə qapının üstündən vurdu. Sonra qol seriyası davam etdi: Belotti, Moreno, Bonuççi, Tiyaqo və Bernardeski öz imkanlarını qaçırmadılar. Bu seriya Alvaro Moratanın uğursuz zərbəsinin Donnarumma tərəfindən dəf edilməsilə pozuldu. Jorjino isə Simon ilə dueldən qalib ayrılaraq İtaliyanın finala yüksəlişini təmin etdi.

İspaniya mahiyyətcə bütün matç ərzində əla oyun nümayiş etdirdi, lakin bu elə də müstəsna oyun deyildi ki, 11 metrlik zərbələrin nəticələri ədalətsiz hesab edilsin. Moratanın həlledici məqamda dəqiq olmaması xarakterik idi. Çünki o, təkcə antiqəhrəman yox, həm də bu İspaniya millisinin qəhrəmanıdır. O, Xoravatiyanın qapısına qələbə qolunu vurub, bu adam İtaliya millisi ilə qarşılaşmanın əsas vaxtında hesabı bərabərləşdirib. Lakin bununla belə təkcə italiyanların qapısına deyil, Slovakiya ilə oyunda da 11 metrlik zərbəni qola çevirə bilmədi. Sual olunur, bəs niyə o həlledici məqamda 11 metrlik zərbəni vurmağa çıxdı?

Luço komandasının bu məğlubiyyətindən məyus olsa da, turnirdən qürurla ayrılır və bunu belə açıqlayır: “Biz əla turnir keçirdik. İtaliyadan yaxşı idik və 11 metrlik zərbələrə qədər çox xırda məqamlara görə qalib gələ bilmədik. Yalnız bir komanda oynayırdı. O, çox böyük qüvvə sərf edirdi, digər komanda isə 11 metrlik zərbələri gözləyirdi”.

Həqiqətən, İspaniya turnirdə müəyyən mərhələdə açıq-aşkar əla oyun nümayiş etdirdiyinə görə sevgiyə və sayqıya layiqdir. İtaliyaya gəldikdə isə, onlar yarımfinala qədər İspaniya üslubunda oynayaraq çatdılar, lakin finala klassik İtaliya üslubunda çıxdılar. Oyunlarına görə deyil, qapı xəttindən topu çıxarmaqla, nadir hallarda əks-hücumlara keçməklə və topsuz qalaraq bütün komanda ilə müdafiə olunaraq bunu etdilər. Neyləyəsən, belə də olar, təki final olsun.

Bunu təkcə Luis Enrike və İspaniya komadasının azarkeşi kimi təkcə mən demirəm. İtaliyanı son məqamda xilas edən Bonuççi də bu fikirdədir: “Heyrətamiz bir matç idi. Çox ağır idi, rəqiblərə dəyər vermək lazımdır. İspanlar yaxşı oynadılar, bunu etiraf etmək lazımdır. Lakin biz İtaliyayıq, heç kim belə dözüm nümayiş etdirə bilmir. Çox çətin idi, lakin komanda çirkli işi yerinə yetirdi və finala çıxdı”, – deyə ulduz müdafiəçi etiraf edir.

Amma təkcə o, yox, komandasının baş məşqçisi Mançini də bu fikirdədir: “Biz finala çıxmağa səy göstərirdik, doğrudur heç çoxları buna inanmırdılar da. Bilirdik çətin olacaq. İspaniya forvardsız oynamaqla dərhal bizi heyrətdə qoydu... Mən İspaniyanı təbrik edirəm, bu əla komandadır, 11 metrlik zərbələr isə – bu lotereyadır”.

Beləliklə İtaliya bu Avroda finalı “lotoreya”da uddu. Bəs çempionluğu necə, bu üsulla qazana biləcəkmi? Baxır rəqibi finalda kim olacaq. Onu isə iyulun 7-də Londonun “Uembli” stadionunda Bakı vaxtı ilə saat 23:00-da baş tutacaq Danimarka – İngiltərə matçından sonra bilərik.

### Sauqeytin komandası tarixə düşə biləcəkmi?




İngiltərə millisi bu dəfə “Uembli”yə özünə böyük inam və qələbəsinə böyük ümidlə qayıdıb. Qaret Sautqeytin komandası dörddəbir finalda Avropa çempionatlarının final turnirlərində ən böyük qələbəsini qazanıb və Ukrayna millisini 4 – 0 məğlub edərək 25 ildən sonra yenidən yarımfinala yüksəlib. Dörd qol İngiltərə yığma komandası üçün 1966-cı ildə keçirilmiş Dünya çempionatından sonra keçirilən beynəlxalq turnirlərin pley-offunda ən yaxşı nəticədir. Həqiqətən İngiltərə yığma komandası həm hücumda, həm də müdafiədə çox əla oyun nümayiş etdirir. Danimarka ilə oyunda da bu keyfiyyətlərini ortaya qoyaraq finala yüksəlməyə çox iddialıdır.

Danimarka millisi üzrə müxbir Sture Sanne matç öncəsi bu oyunun Danimarka millisi üçün nə qədər çətin sınaq olacağı sualına belə cavab verib: “ “Uembli”də İngiltərə ilə qarşılaşma Avro – 2020-də danimarkalılar üçün ən böyük sınaq olacaqmı? Mümkündür ki, belə olsun. Lakin mən demək istərdim ki, Kristensen Eriksonla bütün baş verənlərdən sonra qrup mərhələsində Belçika ilə keçirdiyimiz matç heç də asan oyun deyildi. Əlbəttə, çox ağır bir tapşırığı həll etməliyik, lakin bu “yalnız” fuboldur. Bütün təzyiqlər ev sahiblərinə olacaq, axı Danimarka ötən ilin oktyabrında UEFA-nın Millətlər liqası turnirində “Uembli”də ingilisləri 1 – 0 məğlub edib.

Baş məşqçi Qaret Sautqeyt isə ingilis futbolunun tarixində yeni səhifə yazmaq iddiasındadır: “Bizim tarixə düşmək üçün çox əla imkanımız var,



çünki biz heç vaxt Avropa çempionatının finalına çıxmamışıq. Bu komandaya heç də təzyiq deyil, keçilməsi mümkün olan bir sınaqdır və komanda hələ ki, imtahanları uğurla verir. Bizim payızda Danimarka ilə iki oyunumuz olub. Mən bu komandanın nə qədər güclü olduğunu bilirdim və Avroda da onlar bunu sübut etdilər. Bizi fantastik bir matç gözləyir...”

Komandalar bu görüşə qədər 21 dəfə rəsmi turnirlərdə qarşılaşıblar. Danimarkalıların 4 qələbəsinə İngiltərə millisi 12 qələbə ilə cavab verib. İngiltərə üçüncü dəfədir ki, Avropa çempionatlarının yarımfinalında iştirak edir. Bundan əvvəlki yarımfinal 1996-cı ildə keçirilib və həmin matçda İngiltərə millisi Almaniya yığmasına 11 metrlik zərbələrdə məğlub olub. Danimarka sonuncu dəfə 1992-ci ildə yarımfinala yüksələ bilib. Həmin matçda danimarkalılar 11 metrlik zərbələrdə Hollandiyadan üstün olub və sonda turnirin çempionu olublar.

Yeri gəlmişkən, əgər Sautqeytin yetirmələri yarımfinalda qalib gəlsələr Avropa çempionatlarının 13-cü debütantı olacaqlar. Sonuncu debütantlar 2004-cü ildə finala yüksələn Yunanıstan və Portuqaliya millilәri olublar.

Bir fakt da diqqət çəkir ki, İngiltərə millisi “Uembli”də 932 dəqiqədir ki, qapısından top buraxmır və bu vaxt ərzində rəqib qapılarına 31 qol vurub. İngiltərə yığma komandası “Uembli”də böyük turnirlərin final mərhələlərində oyun vaxtında heç vaxt məğlub olmayıblar. Yalnız Avro – 1996-nın finalında 11 metrlik zərbələrdə Almaniyaya məğlub olublar.

Beləliklə, dünən biz İngiltərə millisi ilə Danimarka yığması arasında İtaliya – İspaniya matçından heç də zəif olmayacaq fantastik bir matçın şahidi olduq...

**İlqar RÜSTƏMOV,**
**“Xalq qəzeti”**